# AZƏRBAYCANDA YAYILMIŞ YABANI KÖK (*Daucus carota* L.) NÖVÜNÜN EKOLOGİYASI VƏ QORUNMASI

**Sabir Həsənov**

*AR ETN Genetik Ehtiyatlar İnstitutu, Bakı*
*Hasanovsabir92@gmail.com*

Yabanı kök (*Daucus carota* L.) həm qida, həm də dərman bitkisi kimi çox mühim əhəmiyyətə malikdir. Bu bitki növünə Azərbaycanın çox hissəsində – Xəzərsahili ovalıqda, Qobustanda, Bozqır yaylada, Alazan-Əyriçay vadisində, Abşeronda, Böyük Qafqazın qərbində və şərqində, Quba dağ massivində, Samur-Şabran ovalığında, Kür-Araz ovalığında, Kür düzənliyində, Naxçıvan MR-in ərazisində yolların və əkin sahələrinin kənarlarında, baxımsız qalmış əkin sahələrində rast gəlinir. İkiillik ot bitkisidir. Xırda, zərif, tutqun ağ rəngli

çiçəklərə malik çətir bitkinin ömrünün ikinci ilində əmələ gəlir. Bitkilərin hündürlüyü 25-55 sm-ə çatır. Bitkilərin üzəri qaba tüklərlə örtülüdür, sərt gövdəyə malikdir. Yarpaqları incə doğranmış krujevadır, ümumilikdə isə üçbucaq formasındadır. Yarpaqların üzəri tüklüdür, bir-birini əvəz edən seqmentlərdən ibarət bəzək kimidir. Sərt gövdənin ucunda yastılaşmış çətirdə tutqun-ağ rəngli kiçik çiçəklər yerləşir. Çətir sıxdır, diametri 8-10 sm-dir. Toxumlar inkişaf etdikcə çətirin kənarları qıvrılır. Meyvələri qurudur, yastı şəkildədir, ətrafları qoruyucu tüklərlə əhatə olunmuşdur. Kökün meyvələri iki merikarpdan ibarətdir. Qurumuş çətir bitkidən ayrılır, toxumları ətrafa səpələnir. Yabanı yerkökü yayda və payızda çiçəkləyir. Bitkilər günəşin yaxşı işıqlandırdığı yerlərdə, qismən də kölgəli yerlərdə yaxşı inkişaf edir.

Ekoloji şəraitdə baş verən dəyişikliklərin bu bitkiyə olan təsirinin öyrənilməsi məqsədilə 2020-2022-ci illərdə Naxçıvan düzənliyində, Abşeronda, Samur-Şabran ovalığında, Quba dağ massivində və Qobustanda eyni istiqamətlərdə axtarış-monitorinq işləri aparılmışdır. Həmin istiqamətlərdə qeydə alınmış yetkin və yuvenil bitkilərin sayı və bir bitkidə toplanmış quru kütlə müəyyənləşdirilmiş və müqayisə edilmişdir. Beş rayonun ərazisindəki areallarda bitən yetkin bitkilərin sayı illərdən asılı olaraq 115-315 ədəd arasında olmuşdur.

2020-ci ildə Ordubad rayonu ərazisində yayılmış yetkin kök bitkilərinin orta hündürlüyü 36 sm, 2021-ci ildə 38 sm, 2022-ci ildə 35 sm olmuşdur. Ərazilərin axtarış və monitorinq aparılan istiqamətlərində ən çox yetkin kök bitkisi 2021-cu ildə (249±18 ədəd), ən az bitki isə 2022-ci ildə (209±16 ədəd) qeydə alınmışdır. Bir yetkin bitkidən ən çox quru maddə 2020-ci ildə (2,2±0,1 q), ən az quru maddə isə 2022-ci ildə (1,8±0,1 q) alınmışdır. Həmin ərazidə ən çox yuvenil bitki 2020-ci ildə (269±16 ədəd), ən az bitki isə 2022-ci ildə (137±12 ədəd) qeydə alınmışdır. Bir yuvenil bitkidən ən çox quru kütlə 2021-ci ildə (0,9±0,1 q) alınmışdır. 2020 və 2022-ci illərdə bir yuvenil bitkidən alınan quru kutlə eyni olmuşdur (0,8±0,1 q). Araşdırmadan məlum olur ki, üç ildə eyni ərazidə bitən yetkin bitkilərin orta sayı ən az bitki bitən ildəkində olduğundan 76 ədəd çoxdur. Bu da onu göstərir ki, yaxın illərdə həmin ərazilərdə bu bitkini heç bir təhlükə gözləmir.

2020-ci ildə Abşeron rayonu ərazisində yayılmış yetkin kök bitkilərinin orta hündürlüyü 35 sm, 2021-ci ildə 37 sm, 2022-ci ildə 38 sm olmuşdur. Bu ərazidə axtarış və monitorinq aparılan istiqamətdə ən çox yetkin bitki 2021-ci ildə (315±19 ədəd), ən az yetkin bitki isə 2020-ci ildə (213±16 ədəd) qeydə alınmışdır. Bir yetkin bitkidən ən çox quru maddə 2022-ci ildə (0,9±0,1 q), ən az quru maddə isə 2020-ci ildə (0,7±0,1 q) alınmışdır. Həmin ərazidə ən çox yuvenil bitki 2020-ci ildə (331±14 ədəd), ən az bitki isə 2022-cü ildə (217±10 ədəd) qeyd edilmişdir. Bir yuvenil bitkidən ən çox quru kütlə 2022-ci ildə (0,9±0,1 q), ən az isə 2020-ci ildə (0,7±0,1 q) alınmışdır.

2020-ci ildə Qobustan rayonu ərazisində yayılmış yetkin kök bitkilərinin orta hündürlüyü 36 sm, 2021-cu ildə 34 sm, 2022-ci ildə 35 sm olmuşdur. Bu ərazidə axtarış və monitorinq aparılan istiqamətdə ən çox yetkin bitki 2021-cu ildə (269±19 ədəd), ən az yetkin bitki isə 2020-ci ildə (223±17 ədəd) qeydə alınmışdır. Bir yetkin bitkidən ən çox quru maddə 2020-ci ildə (2,0±0,1 q), ən az quru maddə isə 2021-ci ildə (1,7±0,1 q) alınmışdır. Həmin ərazidə ən çox yuvenil bitki 2020-ci ildə (220±14 ədəd), ən az bitki isə 2022-ci ildə (184±13 ədəd) qeydə alınmışdır. Bir yuvenil bitkidən ən az quru kütlə 2021-ci ildə (0,7±0,1 q) alınmışdır. 2020 və 2022-cu idə isə bir yuvenil bitkidən alınan kütlə eyni (0,8±0,1 q) olmuşdur.

2020-ci ildə Quba rayonu ərazisində yayılmış yetkin kök bitkilərinin orta hündürlüyü 35 sm, 2021-ci ildə 37 sm, 2022-ci ildə 36 sm olmuşdur. Bu ərazidə axtarış və monitorinq aparılan istiqamətdə ən çox yetkin bitki 2021-ci ildə (269±19 ədəd), ən az yetkin bitki isə 2020-ci ildə (223±17 ədəd) qeydə alınmışdır. Bir yetkin bitkidən ən çox quru maddə 2020-ci ildə (2,0±0,1 q), ən az quru maddə isə 2022-ci ildə (1,8±0,1 q) alınmışdır. Həmin ərazidə ən çox yuvenil bitki 2020-ci ildə (286±15 ədəd), ən az bitki isə 2022-cu ildə (210±11 ədəd) qeydə alınmışdır. 2020 və 2022-cu illərdə bir yuvenil bitkidən bərabər miqdarda (0,8±0,1 q) quru kütlə alınmışdır, 2021-ci ildə bir bitkidən alınmış quru kütlə 0,7±0,1 q olmuşdur.

2020-ci ildə Şabran rayonu ərazisində yayılmış yetkin kök bitkilərinin orta hündürlüyü 36 sm, 2021-ci ildə 37 sm, 2022-ci ildə 35 sm olmuşdur. Bu ərazidə axtarış və monitorinq aparılan istiqamətdə ən çox yetkin bitki 2021-cu ildə (229±19 ədəd), ən az yetkin bitki isə 2020-ci ildə (153±17 ədəd) qeydə alınmışdır. Bir yetkin bitkidən ən çox quru maddə 2020-ci ildə (2,1±0,1 q), ən az quru maddə isə 2021-cu ildə (1,9±0,1 q) alınmışdır. Həmin ərazidə ən çox yuvenil bitki 2020-ci ildə (243±16 ədəd), ən az bitki isə 2021-cu ildə (197±19 ədəd) qeydə alınmışdır. Bir yuvenil bitkidən ən çox quru kütlə 2021-ci ildə (0,9±0,1 q) alınmışdır. 2020-ci və 2022-ci illərdə bir bitkidən alınan quru kütlə eyni (0,8±0,1 q) olmuşdur.

Araşdırılmalardan görünür ki, axtarış-monitorinq aparılan dövrlərdə eyni ərazilərdə bitən yetkin və yuvenil kök bitkilərinin orta hesabla sayında çox da böyük fərq yoxdur. Bitkilərin quru kütlə çıxımında da

böyük fərq qeydə alınmamışdır. Bu da onu göstərir ki, son illərdə dünyada, o cümlədən Azərbaycanda ekoloji şəraitdə ciddi dəyişikliklər baş versə də, yabanı kök bitkisinin adaptivliyinin yüksək olması səbəbindən ona çox da ciddi ziyan dəyməmişdir. Hazırkı dövrdə bu bitkini heç bir təhlükə gözləmir. Lakin buna baxmayaraq, onların daim nəzarətdə saxlanılması, bitki yığımı üçün müəyyən bir hədd müəyyənləşdirilməsi vacibdir.